*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 444-450*
https://doi.org/10.62837/2024.3.444

**AĞAYEVA SƏBİNƏ RAMİN QIZI**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Üzeyir Hacıbəyli küç.68**
sdovlatli@gamil.com

# ORTA MƏKTƏBDƏ HEKAYƏ JANRINDA ƏSƏRLƏRİN TƏDRİSİNDƏ İKT İMKANLARINDAN İSTİFADƏ (VI, VII, VIII SİNİFLƏR ƏSASINDA)

## XÜLASƏ

Bu gün inkişaf etmiş ölkələrin əksəriyyətinin dövlət siyasəti informasiya cəmiyyətinin və yüksək texnologiyalı milli iqtisadiyyatın əsasının qoyulmasıdır. Və bu ölkələrdə informasiya kommunikasiya texnologiyaları (İKT) tərəqqinin əsas vasitəsi kimi çıxış edir. Təsadüfi deyil ki, yaşadığımız dövrü “informasiya”, “texnologiya”, “kompüter” və s. əsri adlandırırlar. Müasir dövrün inkişaf təmayülünü özündə ehtiva edən informasiya texnologiyaları cəmiyyətin istənilən sahəsində əsas ehtiyac mənbəyidir.

Təhsilimizə İKT-nin daxil olması, məktəblərimizə yol açması, dərs prosesində onlardan istifadə kimi məsələlərlə bağlı elmi və metodik ədəbiyyatda müxtəlif fikirlər söylənilmiş, təklif və tövsiyələr irəli sürülmüşdür. Qabaqcıl müəllimlərimiz şəxsi təcrübələri əsasında informasiya kommunikasiya texnologiyalarının tədrisdə əhəmiyyəti, vacibliyi və istifadəsinə dair göstərişlərin yer aldığı yazılarla dövri mətbuatda çıxış etmişlər. Onların irəli sürdüyü fikirləri bir daha nəzərdən keçirmək, təhlil etmək, ən zəruri ideyaları seçmək, ümumiləşdirmək, yeni ideyalar irəli sürmək və onları göstərmək hazırki işimizin əsas məqsədlərindəndir. Həmçinin İKT-dən istifadə ilə bağlı konkret nümunələr (siniflər və mözvular əsasında) burada yer almaqdadır. Fikrimizcə, təhsilimizdə İKT-dən istifadənin genişləndirilməsi, əlçatanlılığının təmini ilə bağlı işlər ümumrespublika miqyasında görülməlidir. Həmçinin bütün təhsil işçilərimiz də buna cəlb edilməlidir.

**Açar sözlər:** İKT, fəal dərs, yeni texnologiyalar, ədəbiyyat dərsi, hekayə janrı.

“Bu gün informasiya komunikasiya texnologiyaları həyatımızın bütün sferalarına, o cümlədən təhsil prosesinə sıx inteqrasiya olunur. Sinifdə kompüter texnologiyalarından geniş istifadə olunur, multimediya təqdimatları olmadan heç bir məktəbdə keçirilən tədbir başa çatdırılmır” [12]. Kurikulum islahatının əsası təlimin fəal, interaktiv və inkişafetdirici əsasda qurulmasıdır. Bu islahatda təkcə təlimin

məzmununda deyil, həm də onun vasitə və metodlarında dəyişikliyin olunması əsas götürülür. Başqa sözlə desək, yeni texnologiyaların tətbiqi labüd olub. Yeni texnologiyalar şagirdi subyektə çevirir, onun müsəqilliyini, yaradıcılığını, çevikliyini önə çəkir. Bu gün təlim-tədris prosesində fənn müəllimləri müxtəlif texnologiyalara müraciət edirlər. Bu texnologiyaların seçimində fənnin strukturu, məzmunu və məqsədinə uyğunluluğu, şagirdlərin isə individual xüsusiyyətləri və harmonik inkişafı gözlənilir. Xüsusən, bu texnologiyaların tətbiqinin başlıca məqsədi şagird düşüncəsinə yol açmaqdır. Bilikləri özü əldə edən şagird onu daha yaxşı mənimsəyir. Lev Tolstoyun da dediyi kimi “ bilik ancaq o zaman həqiqi bilikdir ki, hafizə yox, düşüncə gücünə əldə edilmişdir”.

Tədrisdə İKT-dən istifadə təlimi dinamik və çevik edir. Təlimdə digər üsullarla birgə istifadə isə təlim keyfiyyətini yüksəldir. ”İKT texnologiyaları kompüter və internetin köməyi ilə informasiyanın hazırlanması, şagirdə ötürülməsi prosesidir” [6, s.13]. Bu texnologiyaların məktəblərdə istifadəsinin artıq tələbata çevrilməsinə dövlət səviyyəsində görülən işlər də öz töhfəsini vermişdir. Belə ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən 2004-cü il 21 avqust tarixində təsdiqlənmiş “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)” na əsasən, bu işlərə start verildi. 2010-cu ildə ölkəmizdə “Təhsildə İKT ili” elan edildi və bu istiqamətdə həvəsləndirici və istiqamətləndirici aksiyalar, konfranslar, seminarlar, müsabiqələr həyata keçirildi.

Göründüyü kimi, məktəblərimizdə bu texnologiyaların istifadəsi birbaşa dövlət siyasətinin tərkib hissəsidir. Və bu gün hər bir fənn müəllimi bu siyasəti əsas seçib ondan istifadə etməlidir. Xüsusən, digər informativ fənlərdən fərqli olaraq, ədəbiyyat fənnin öyrədici, interaktiv, maraqlı təşkili vacibdir. Çünki ədəbiyyat fəninin tədrisi ilə gələcəyin sözün əsl mənasında şəxsiyyəti formalaşdırılır. Bu şəxsiyyət hiss edən qəlbini düşünən beyni ilə birləşdirir. Hissiyyat nə qədər sağlam və doğru olarsa, düşüncə də bir o qədər düzgün olar və fəaliyyətdə özünü əks etdirər. Fənnin başlıca məqsəd və vəzifələrindən biri “yeniyetmələrin timsalında şəxsiyyət-vətəndaş yetişdirmək, onun dünyagörüşünü genişləndirmək, milli mənlik şüurunu oyatmaq, ona milli kimliyini və qüdrətini, soykökünü, gen kodlarını tanıtmaqdır”. [3, s.3]

Ədəbiyyat dərslərində fənnin qarşısında duran məqsəd və vəzifələrin reallaşdırılması üçün dərsin effektiv şəkildə qurulması əsasdır. Ədəbiyyatdan tədris edilən bədii əsərlərdə aşılanan ideya, mənəvi dəyərlər, müəllif yanaşması və s. cəhətlər təhsilalanlara tam aydın olmalıdır. Fənn proqramına daxil olan əsərlər içərisində daha çox üstünlük təşkil edən və tədrisi mühüm əhəmiyyətli olan janr hekayə janrıdır. Hekayə janrında olan əsərlərin tədrisində İKT imkanlarından istifadə fənn müəllimləri tərəfindən edilir, biz də bu texnologiyalardan istifadə ilə

bağlı göstərişlərimizi, konkret nümunələrə tətbiqi qaydalarını əsaslandırmaq istəyirik. İKT-dən istifadə digər üsullarla kompleks şəkildə həyata keçirildikdə daha uğurlu nəticələr əldə etmək mümkündür.

İnformasiya-kommunikasiya texnologiyalarından fəal dərsin istənilən mərhələsində istifadə etmək mümkündür. Əsasən, dərsə giriş hesab edilən motivasiya mərhələsində bu alternativdir. Məlumdur ki, motivasiya mərhələsi nə qədər maraqlı, cəlbedici, əyləndirici və həvəsləndirici tətbiq edilərsə, şagirdlərin mövzuya marağı bir o qədər yüksək olar. Yeni dərsin mövzusuna uyğun olaraq, müəllim mövzu ilə əlaqəli şəkillərdən ibarət slayd, hazır video çarxlar, hansısa film, proqram, çıxışdan fraqmentləri seçib "ağıllı lövhədə", kompüterdə və ya proyektor vasitəsilə göstərə bilər. İşə daha da yaradıcı yanaşaraq, mövzuya və şagirdlərin maraq dairəsinə uyğun olaraq, toplanılmış materialları MS Power Point proqramı vasitəsilə təqdimat şəklində müəllim özü hazırlaya bilər. Məsələn, 6-cı sinifdə Məmməd Namazın "Hamının günəşi" hekayəsinin tədrisi zamanı müəllim motivasiya mərhələsində Heydər Əliyevin şəkillərindən və onun çıxışlarından qısa fraqmentlər toplanılmış təqdimat hazırlayıb nümayiş etdirə bilər. H. Əliyevin göstərilən şəkillərinin yanında Ulu Öndərin qızıl kəlamlarını verə və ya Ümumilli liderə həsr edilmiş musiqi səsləndirilə bilər. Müəllim hazır videodan da istifadə edə bilər [9]. Daha sonra şagirdlərə "izlədiyiniz video (dinlədiyiniz musiqi) sizdə hansı hisslər doğurdu?", "Ulu Öndərimizlə bağlı nələri bilirsiniz?", "Bəs siz Ulu Öndərin hansı kəlamlarını söyləyə bilərsiniz?" kimi suallarla müraciət edilərək Ümumilli liderdən bəhs edən hekayəyə keçid edilə bilər.

Təqdimatdan başqa virtual səyahətdən də istifadə edilə bilər. Virtual səyahətdən tarixi yerlərin, muzeylərin, ölkələrin, fauna aləminin, adətlərin, musiqi alətlərinin, texnologiyanın və s. öyrənilməsində istifadə edilə bilər. Virtual səyahət materiallarını kompüterlə də, proyektorla da nümayiş etdirmək olar. Məsələn, 6-cı sinifdə Əli Səmədlinin "Qanlı bənövşə", 7-ci sinifdə isə Zahid Xəlilin I Qarabağ müharibəsindən, xüsusən, Milli Qəhrəmanımız Əlif Hacıyevdən bəhs edən "Sonuncu güllə" hekayəsinin tədrisində müəllim Xocalı, Şuşa, Ağdam və başqa işğaldan azad olmuş yerlərimizə virtual səyahət təşkil edə bilər. Virtual səyahətlə şagirdlər hadisələrin baş verdiyi torpaqlarımızı, onların əsrarəngiz təbiətini, zəngin tarixi və memarlıq abidələrini görəcəklər. Bir növ o torpaqları gəzib gələcəklər. Bununla da erməni vandalizminin, barbarlığının və vəhşiliyinin daha dərindən şahidi olacaqlar [10].

Bəzən dərslikdə araşdırma başlıqlı tapşırıqlarda və ya internetin köməyilə icra edilməsi nəzərdə tutulan tapşırıqlarda şagirdlərin internet resurslarına müraciət etməsi tələb edilir. İnternet resurslarının araşdırılmasında müəllim şagirdlərə tədqiqat aparmaları üçün şərait yaradır. Belə dərslərdə başlıca məqsəd şagirdlərdə internetdən məlumat əldə etmək, onu təhlil etmək, strukturlaşdırmaq, nəticə çıxarmağı

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 444-450*
formalaşdırmaqdır. İnternet resurslarının araşdırılması zamanı şagirdlər daha fəal rol oynayırlar, bu texnologiyadan dərsin bütün mərhələlərində, tematik layihələrdə, müstəqil və ya qrup araşdırmalarında istifadə etmək olar. Texnologiya şagirdlərin yeni materialı müstəqil şəkildə öyrənmə, təhlil etmə və müstəqil şəkildə təqdim etmələrinə imkan yaradır. Məsələn, VII sinifdə Eyvaz Zeynallının "Kəşfiyyatçılar" hekayəsinin tədrisində ev tapşırığında "Kitabxanadan və ya internetdəki mənbələrdən İkinci Qarabağ müharibəsinə həsr olunmuş bir hekayə ilə tanış olmaq, "Kəşfiyyatçılar" əsəri ilə oxşar və fərqli cəhətlərini müəyyənləşdirməyə çalışmaq"[1, s.65] tələb olunur və ya Ənvər Məmmədxanlının "Qızıl qönçələr" hekayəsində "Müxtəlif mənbələrdən (digər fənlərdən, internet səhifələrindən və s.) topladığınız məlumat əsasında "Cənubi Azərbaycanda yaşayan soydaşlarımız bu gün mövzusunda şifahi təqdimat hazırlamaq" [1, s.130] tələb edilir. VIII sinifdə isə nümunə kimi Nizami Gəncəvinin "Sultan Səncər və qarı" hekayəsinin tədrisində ev işində "Kitabxanadan, internetdən topladığınız məlumat əsasında "Nizaminin yoxsullara, əməkçi insanlara münasibəti" mövzusunda şifahi təqdimata hazırlaşmaq [2, s.35] tapşırılır, bunlardan əlavə müəllim dərslikdə olmasa belə, özündən müstəqil çalışma verə bilər. Məsələn, Mirzə İbrahimovun "Azad" hekayəsinin tədrisində Cənubi Azərbaycan haqqında məlumat toplamaq tapşırığını verə bilər. Bütün bu tapşırıqların icrası zamanı şagirdlər müxtəlif internet resurslarından istifadə edəcək. Əlavə olaraq müəllim şagirdlərdən istifadə etdikləri internet saytlarının adlarını qeyd edib, həmin sayt haqqında əlavə məlumat verməsini istəyə bilər. Hətta daha yaxşı olar ki, müəllimlərimiz şagirdlər üçün faydalı olan internet resursları ilə onları qabaqcadan tanış edib, həmin resursdan hansı məqsədlərlə istifadənin daha yararlı olacağını qeyd etsin. [11]

İnformasiya-kommunikasiya vasitələrindən, kompüterdən şagirdlər tematik layihələrin hazırlanmasında istifadə edə bilərlər. Həmçinin dərs prosesində və ya dərsdənkənar internetin imkanlarından istifadə ilə onlayn müsabiqə, konfrans, viktorinalarda şagirdlərin iştirakı təmin edilə bilər. Bu gün təlimdə onlayn görüşlərin keçirilməsi dərsin keyfiyyətini daha da yüksəldə bilər. Ədəbiyyat dərsliklərində yazıçılarımız Sevinc Nuruqızı, Mustafa Çəmənli, Eyvaz Zeynallı, Zahid Xəlil, Elçin Hüseynbəyli, Elçin Əfəndiyev və b. əsərləri yer alır. Bu müəlliflərin hekayələrinin tədrisində, xüsusən, təhlil dərslərində, müəllif yanaşmasından bəhs edərkən dərs prosesində yazıçılarımızla onlayn görüş yaradıla bilər. Bu görüş şagirdlərin yaddaşında əminik ki, silinməz izlər qoyacaqdır. Onlar oxuyarkən həyəcanlandıqları, bəlkə də, öz həyat ideallarına çevirdikləri obrazları yaradan sənətkarlarla görüşəcəklər. Onları maraqlandıran, düşündürən bütün sualları elə əsərin öz müəllifinə verib cavablar alacaqlar. Müasir dövrümüzün əsas tələb meyarına çevrilən bu texnologiyadan müəllimlərimiz tədris prosesində yaradıcı şəkildə istifadə etməlidir.

İKT şagirdlərin informasiyanı əldə etməsi, seçməsi və izah etməsinə, mülahizələrini proqnozlaşdırmasına, irəli sürməsinə, öz yaradıcılıq imkanlarını inkişaf etdirməsinə, bilik, bacarıqlarını qiymətləndirməsinə imkan yaradır. Bütün fənlərdə bu texnologiyanın istifadəsi şagird fəaliyyətinə, həmçinin dərsin keyfiyyətinə müsbət təsir göstərir. Ədəbiyyat fənni digər informativ fənlərdən fərqlənir, burada əsas məqsəd şagirdlərin estetik duyumunu, bədii və emosional qavramasını təmin etməkdir. Ədəbiyyat onların daxili aləminin, mənəviyyatının, düşüncə tərzinin düzgün formalaşdırılması və tərbiyəsində vacib rol oynayır. Buna görə də ədəbiyyat dərslərində təlimin müasir texnologiyalarından istifadə ilə fəal dərsin qurulması vacibdir. Nəzm əsərlərilə müqayisədə nəsr əsərlərinin tədrisində şəxsi münasibətin formalaşdırılması, ideyanın düzgün aşılanması daha rahat olur. Bu əsərlərin tədrisinə müəllimlər daha yaradıcı yanaşmalı, ənənəvi üsullardan qaçmalıdırlar. Bu gün bir çox müəllimlərimiz İKT-dən tədrisdə geniş şəkildə istifadə edir. Hətta şəxsi təcrübədən çıxış edərək məqalələr də yazmışlar. Lakin yenə də əskikliklər mövcuddur. Müəllimlərimizin İKT-dən istifadəsini çətinləşdirən başlıca cəhətlərdən biri lazımlı texniki vasitələrin mövcud olmaması və ya azlığıdır. Digər səbəblər kimi müəllimlərin bu vasitələrlə işləyə bilməməsi və ya sadəcə "45 dəqiqəni bir təhər yola vermək" arzusudur. Dövrün əsas tələbatına çevrilən İKT texnologiyaları mütləq tədrisdə istifadə edilməlidir. Bunun təmini üçün də problemlərin aradan qaldırılması birinci şərtdir.

## Ədəbiyyat

1. Əliyev S., Həsənov B., Məmmədova S., Mustafayeva A., Verdiyeva N. Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı: "Şərq-Qərb" MMC, 2022, 208 səh.
2. Əliyev S., Həsənov B., Məmmədova S., Mustafayeva A., Verdiyeva N. Ümumi təhsil müəssisələrinin 8-ci sinifləri üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı: "Təhsil NP" MMC, 2023, 208 səh.
3. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: "Müəllim", 2014, 424 səh.
4. Hümbətəliyev R. Təhsildə İKT. Bakı: "ADPU-nun mətbəəsi", 2018, 103 səh.
5. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal\interaktiv təlim. Bakı: 2009, 200 səh.
6. Mehdiyeva R. Tədris prosesində İKT-dən istifadə imkanları. Bakı: "Elm və təhsil", 2016, 108 səh.
7. Süleymanova A., Bağırova T. Ümumtəhsil müəssisələrinin 6-cı sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı: "Təhsil Nəşriyyat-Poliqrafiya"MMC, 2017, 240 səh.

8. Ağadadaş Ağayev - Heydər Xalqım Deyəcək - YouTube
9. Şuşa. Virtual səyahət - 31.03.2019 - YouTube, Aghdam - virtual visit / Ağdam - virtual səyahət - YouTube, Cəbrayıl.Virtual səyahət - YouTube, Gubadli - virtual visit / Qubadlı - virtual səyahət - YouTube, Fuzuli - virtual visit / Füzuli – virtual səyahət - YouTube, Lachin - virtual visit / Laçın - virtual səyahət - YouTube, İşğal altında olan Zəngilana virtual səyahət - YouTube
10. www.shagird.info.az www.edu.gov.az www.e-derslik.edu.az www.testbook.az www.muallim.edu.az www.trims.edu.az http://ek.anl.az/ www.dim.gov.az
11. Использование ИКТ на уроках (rosuchebnik.ru)

**Aghayeva Sabina**

## USE OF ICT OPPORTUNITIES FOR TEACHING WORKS IN THE STORY GENRE IN SECONDARY SCHOOL (BASED ON GRADE VI, VII, VIII)

### Summary

Today, the state policy of most developed countries is to lay the foundations of the information society and high-tech national economy. And in these countries, information and communication technologies (ICT) are the main means of progress. It is no coincidence that the era in which we live is called “information”, “technological”, “computer”, etc. they call it the century. Information technologies, which include the development trend of the modern era, are the main source of needs in any area of society.

In the scientific and methodological literature, various opinions, proposals and recommendations have been expressed on such issues as the inclusion of ICT in our education, their introduction into our schools, and their use in the educational process. Based on personal experience, our leading teachers have published articles in periodicals advising on the importance, relevance and use of information and communication technology in teaching. Consideration and analysis of the ideas put forward by them, selection of the most necessary ideas, their generalization, proposal of new ideas and their demonstration are the main goals of our current work. In our opinion, work related to expanding the use of ICT in our education and ensuring its accessibility should be done on a national scale. Also, all our education workers should be involved in it.

**Keywords:** ICT, active lesson, new technologies, literature classes, story genre

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 444-450*

**Агаева С.Р.**

## ИСПОЛЬЗОВАНИЕ ВОЗМОЖНОСТЕЙ ИКТ ДЛЯ УЧЕБНОЙ РАБОТЫ В ЖАНРЕ ИСТОРИИ В СРЕДНЕЙ ШКОЛЕ (НА ОСНОВЕ VI, VII, VIII КЛАССА)

**Резюме**

Сегодня государственная политика большинства развитых стран заключается в закладывании основ информационного общества и высокотехнологичной национальной экономики. И в этих странах информационно-коммуникационные технологии (ИКТ) выступают главным средством прогресса. Не случайно эпоха, в которой мы живем, называется «информационной», «технологической», «компьютерной» и т. д. они называют век. Информационные технологии, которые включают в себя тенденцию развития современной эпохи, являются основным источником потребностей в любой сфере жизни общества.

В научной и методической литературе высказаны различные мнения, предложения и рекомендации по таким вопросам, как включение ИКТ в наше образование, внедрение их в наши школы, использование в учебном процессе. На основе личного опыта наши передовые преподаватели опубликовали в периодической печати статьи с указаниями о важности, важности и использовании информационно-коммуникационных технологий в обучении. Рассмотрение и анализ выдвинутых ими идей, отбор наиболее необходимых идей, их обобщение, предложение новых идей и их демонстрация – основные цели нашей текущей работы. Кроме того, сюда включены конкретные примеры использования ИКТ (на основе занятий и тем). На наш взгляд, работа по расширению использования ИКТ в нашем образовании и обеспечению их доступности должна вестись в национальном масштабе. Также к этому должны быть привлечены все наши работники образования.

**Ключевые слова:** ИКТ, активный урок, новые технологии, уроки литературы, жанр рассказа.

**Redaksiyaya daxil olma tarixi:**
**Çapa qəbul olunma tarixi:**
**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dos. Vaqif Əliyev tərəfindən çapa tövsiyə olunmuşdur**